*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 316-321* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.316*

# MEHDİ MƏMMƏDOVUN TEATRLA BAĞLI TƏDQİQATLARI

**Nurlanə Məmmədova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: memmedovanurlane89@gmail.com
https://orcid.org/0000-0002-1734-8949

**Annotasiya.** Teatr insanların emosional tərəflərinə toxunaraq, onları tərbiyə etmək funksiyasına malik estetik idrak vasitəsidir. Bədii yaradıcılığın da mahiyyətində insana təsir etmək, onlara müsbət ideyalar aşılamaq dayanır. Bu cəhətdən bu iki sahəni vəhdətdə təhlilə cəlb etmək müasir dövrümüzün aktual problemləri sırasındadır. İncəsənət sahəsində öz fəaliyyəti ilə fərqlənən Mehdi Məmmədov teatr və dramaturgiyanın vacib problemlərini araşdırmaqla bir tədqiqatçı kimi öz vəzifəsini yerinə yetirmişdir. Məqalədə məqsəd dramaturgiyanın nəzəri, estetik tərəflərini tədqiqata cəlb edən alimin teatrla bağlı elmi biliklərinə nəzər salmaqdır. Bununla əlaqədar olaraq, Mehdi Məmmədovun teatr və dramaturq, teatr və aktyor, aktyorların Azərbaycan teatr tarixində xidmətləri, aktyor məktəbləri haqqında fikirləri təhlil edilmiş, onun ədəbi-nəzəri fikir tarixində yeri və mövqeyi qiymətləndirilmişdir.
**Açar sözlər:** Mehdi Məmmədov, dramaturgiya, teatr, aktyor, teatr məktəbləri

**Məqalə tarixçəsi:** göndərilib – 17.07.2023; qəbul edilib – 28.07.2023

# MEHDI MAMMADOV'S STUDIES ON THEATER

**Nurlana Mammadova**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: memmedovanurlane89@gmail.com
https://orcid.org/0000-0002-1734-8949

**Abstract.** Theater is a means of aesthetic cognition with the function of educating people by touching their emotional sides. The essence of artistic creativity is to influence people and instill positive ideas in them. In this regard, involving these two areas in a unified analysis is one of the urgent problems of our time. Mehdi Mammadov, distinguished by his activity in the field of art, fulfilled his duty as a researcher by investigating the important problems of theater and dramaturgy. The aim of the article is to look at the scientific knowledge of the theater scientist who studies the theoretical and aesthetic aspects of dramaturgy. In this regard, Mehdi Mammadov's ideas about theater and dramatist, theater and actor, actors' services in the history of Azerbaijani theater, acting schools were analyzed, and his place and position in the history of literary and theoretical thought were evaluated.
**Keywords:** Mehdi Mammadov, dramaturgy, theater, actor, theater schools

**Article history:** received – 17.07.2023; accepted − 28.07.2023

## Giriş / *Introduction*

Ədəbiyyatın növ və janrlarının incəsənətdə təzahürünü görmək hər zaman mümkündür. İstər poeziya, istər nəsr, istərsə də dramaturgiya ikinci bir sənət növü ilə qovuşub vəhdətdə mövcud olmuşdur. Poeziya musiqidə, nəsr kinoda, dramaturgiya isə teatrda öz təcəssümünü tapmışdır. Dramaturgiyadan fərqli olaraq, poeziya və nəsr birbaşa incəsənətin sahələri ilə əlaqədə deyildir. Onlar ikinci bir sənət növü olmadan da oxucuya çatdırıla bilir. Çünki onların yaranma məqsədi fərqlidir. Poeziyada insan hisslərinə təsir əsas götürülüb tərənnüm etmək əsas vəzifə kimi seçilirsə, nəsrdə hadisə və xarakterlərin təsviri vacibdir. Dramaturgiya isə birbaşa teatr ilə vəhdətdə inkişaf etmişdir. Dramatik əsərlərin başlıca vəzifəsi canlı obrazlar vasitəsilə dərk edilməkdən başlayır. Bu da onu göstərir ki, dramatik əsərlər tamaşaya qoyulmaq üçün yazılır. Düzdür, ədəbiyyatda dramaturqların yaradıcılığında yalnız oxunmaq üçün yazılmış əsərlər də vardır. Bunların sayı isə çox azdır. Həm də dramaturgiyanın əsas funksiyası fəaliyyət və göstərmədir. Gözlə görünən bir hadisə və xarakter daha aydın dərk edilir ki, bu vəzifəni dramaturgiya öhdəsinə götürür.

## Əsas hissə / *Main Part*

Teatr və dramaturgiya bir-birinə bağlı olan, bir-birinin yaradıcılıq uğurlarını bölüşən ayrılmaz sahələrdir. Dramaturgiyada qələmə alınan hadisələri və onları icra edən xarakterləri hərəkət vasitəsilə təqlid etmək olar. Aristotelin də qeyd etdiyi kimi, "təqlidçilər hamısı hərəkət və fəaliyyət adamlarını təqlid edir" [1, s.25]. Dramaturgiyanın hərəkət forması teatrda reallaşır. Oxucunun əsərdən aldığı təəssürat tamaşanın qoyuluşu ilə daha aydın mövqedən canlandırılır. Təsəvvürdən reallığa qovuşan bədii əsərin səhnə həyatı ona başqa bir rəng qatır. Ya əsərə yeni keyfiyyətlər əlavə edib onun uğurunu daha da artırır, ya da tamaşa əsərin aşıladığı ideya və məzmundan geri qalır. Bütün bu xüsusiyyətlərin təcəssümü rejissorun fəaliyyətindən və aktyorların obrazın xarakterik cəhətlərini tamaşaçıya çatdırma bacarığından asılıdır. Ona görə də teatrın təşəkkülü, inkişafı, dramaturgiya ilə əlaqəsi istiqamətində araşdırmaların aparılmasına xüsusi önəm verilmişdir. Bu istiqaməti öz tədqiqatları üçün əsas vəzifə seçənlərdən biri də aktyor, rejissor və tənqidçi Mehdi Məmmədov olmuşdur. O, ədəbiyyat və incəsənəti, teatr və dramaturgiyanı dialektik vəhdətdə təhlil etmiş, teatr və dramaturq, teatr və aktyor problemləri ətrafında nəzəri qənaətlərini ümumiləşdirmişdir. Tədqiqatçı qeyd edirdi ki, "teatr – tribunadır, teatr – kafedradır, onun özünəməxsus teatr vasitələri vardır: o, insanın düşüncəsinə və qəlbinə estetik cəhətdən təsir göstərir. Onlara yüksək bədii və emosional hiss aşılayır, onlarla bədii obrazların dili ilə danışır, ən nəhayət isə, mənəvi zövq verir" [2, s.3].

Tənqidçi "Teatrlar, aktyorlar, tamaşalar", "Teatr düşüncələri" kitablarında Mirzə Fətəli Axundzadənin xidmətləri ilə Azərbaycanda professional şəkildə qoyulan dramaturgiyanın və teatrın inkişaf tarixinə nəzər yetirmişdir. Mehdi Məmmədov dünya klassik nəzəriyyəsinin nümayəndəsi Aristotelin və Azərbaycanda dramaturgiya və teatr nəzəriyyəsini öz fikirlərində əks etdirən Mirzə Fətəli Axundzadənin davamçısı kimi özünü göstərmişdir. Teatra və insana sevgi hissi və bu sevgiyə inam onu korifeylərin yolunu davam etməyə sövq etmişdir. O özü bu barədə belə məlumat verirdi: "Teatrın havası, eşqi məni rahat buraxmır. Teatra məhəbbət təkcə duyğudan, hissdən, həvəsdən ibarət ola bilməz. Bu məhəbbət ağıl, əqidə, inam anlayışından ayrı deyildir" [3, s.12].

Mehdi Məmmədov dramaturgiya və teatr məktəblərini müəyyənləşdirmişdir. O, dramaturgiyanın inkişafında beş dramaturqun fəaliyyətini zirvə adlandırmışdır:

- Mirzə Fətəli Axundzadə
- Cəlil Məmmədquluzadə
- Hüseyn Cavid
- Cəfər Cabbarlı
- Səməd Vurğun

Teatrın inkişafında isə iki məktəbin mövcudluğundan bəhs etmişdir:

- Realistik məktəb
- Romantik məktəb

Mehdi Məmmədov Aristotelin “paklaşma”, Belinskinin “incəsənətin tacı”, Mirzə Fətəli Axundzadənin “sənətlərin ən şərəflisi” kimi ifadələrlə mənalandırdığı dramaturgiyanın dünya nəzəri fikrində teatrla əlaqəsini bu şəkildə dəyərləndirmişdir:

- Qədim yunan dramaturqları və yunan teatrı
- Şekspir və XVI əsrin İngiltərə teatrı
- Lope de Veqa və ispan teatrı
- Qriboyedov, Qoqol, Ostrovski və Malı teatrı
- Çexov, Qorki və Moskva Bədaye teatrı
- Mirzə Fətəli Axundzadə və Azərbaycan teatrı
- Üzeyir Hacıbəyov və musiqili teatr
- Hüseyn Cavid, Cəfər Cabbarlı, Səməd Vurğun və dram teatrı

Bu xronoloji ardıcıllıq elmi-nəzəri fikrə məlum olan dram əsərlərinin yaranması tarixi ilə bağlı qurulmuşdur. Dünya və Azərbaycan dramaturgiya və teatrının inkişafını tarixi ardıcıllıqla izləyən tənqidçi Azərbaycanda professional dramaturgiyanın və teatrın yaranmasını Mirzə Fətəli Axundzadənin adı ilə bağlamışdır. O, tarixi inkişaf müstəvisində teatrın qədimliyi məsələsinə toxunmuş, şifahi xalq ədəbiyyatında da bu iki bir-birindən ayrılmaz sahənin mövcud olduğu qənaətinə gəlmişdir. “Milli teatrımız öz mənbəyini uzaq keçmişlərdən alır. Qədim xalq oyunlarımızda, milli bayramlarımızda teatr sənətinin müxtəlif ünsürləri vardır. Teatr Azərbaycanda uzun zaman xalq yaradıcılığında yaşamış, XIX əsrdə isə Mirzə Fətəli Axundovun dühası ilə professional sənət pilləsinə qalxmışdır” [4, s.7].

Tənqidçi Şekspirin səhnə əsərlərindəki konflikti təzadlar dünyası, gülüş və göz yaşlarının qovşağından qurulmuş dünya kimi qiymətləndirmişdir. Rus dramaturqu Aleksandr Ostrovskinin komediyalarının Azərbaycan səhnəsinə verdiyi töhfələrdən bəhs edərkən onun nəzəri görüşlərinin mahiyyətinə hopan xəlqilik keyfiyyətinin əhəmiyyətini qeyd etməyi unutmamışdır. O, bu nəticəyə gəlirdi ki, “Ostrovskinin yaradıcılığında tənqidi realizmin ən böyük nailiyyəti “zülmət səltənətində işıq şüası” idi” [5, s.95].

Şekspirin əsas mövzularının intibah mədəniyyətinin tələbləri səviyyəsində qurulmasını, humanizmin insan fəlsəfəsini diqqət mərkəzində saxlamasını onun əsərlərini müasir dövrdə yaşadan səbəb kimi qeyd edən Mehdi Məmmədov dramaturqun yaradıcılığını üç dövrə bölmüşdür:

1. 1590-1601-ci illər: Komediyalarının yarandığı dövr
2. 1601-1608-ci illər: Faciələrinin yarandığı dövr
3. 1609-1612-ci illər: Faciə-komediyalarının yarandığı dövr

Komediyadan tragikomediyaya doğru istiqamətlənən bu mərhələlər arasında rabitə Şekspirin insanın mənəvi aləminə bağlılığı və insan taleyi məsələsidir. Tənqidçi də bu cəhətin üzərində dayanmış, Şekspirin yaradıcılığının “mənəvi təmizlənmə”yə yol açdığını vurğulamışdır. Yaradıcılığının birinci mərhələsində Şekspirin gülüşünün mahiyyəti və onun teatrda əksi, ikinci mərhələsində isə aldanışlardan qaynaqlanan fəlakətlər müstəvisində dramaturqun əsərlərinin Azərbaycan səhnəsində tamaşaya qoyulma tarixi nəzərdən keçirilmişdir. Dramaturqun əsərlərində olan gülüşün ifşaedici obrazı qismində təlxək surətinə diqqəti yönəldən tənqidçinin bu qənaəti düzgün idi ki, “o, bir çox hakimanə və tənqidi fikirlərini xalq ədəbiyyatından, Orta əsr teatrından gələn həmin bu təlxək, qapıçı, nökər surətlərinin vasitəsilə tamaşaçılara çatdırır” [5, s.81].

Teatrın başlıca vəzifəsi “göstərmək”, “canlandırmaq” olduğu üçün dramaturqun əsas düşüncələrini və əsərin ideyasını özündə daşıyan obrazların ifaçısı olan aktyorların üzərinə böyük yük düşür. Aktyorlar dramatik əsərin surətlərinin xarakterik cizgilərini daha aydın formada əsərin oxucusuna çatdıra bilən dövrlərinin canlı tarixçəsidir (“Zəmanəmizin tarixçəsi” ifadəsi Şekspirə məxsusdur – N.M.). Çünki həm tarixi keçmişdən bəhs edən əsərlərə, həm də müasir məzmun ifadə edən əsərlərə müasirlik zəmini qatan, onu cavanlaşdıran sima aktyordur. Eləcə də tarixi qədim olan əsərlərin səhnəyə qoyuluşunda onları müasirləşdirən aktyorlardır. Tarixilik və müasirliyin bir müstəvidə bir-

ləşmə xüsusiyyəti rejissordan çox, aktyorun üzərinə düşür. Rejissorun əsərə verdiyi quruluş aktyorun bacarığı nəticəsində uğurlu və ya uğursuz sonluqla nəticələnə bilər. Hüseyn Ərəblinskinin, Mirzağa Əliyevin, Abbas Mirzə Şərifzadənin, Bülbülün, Hökümə Qurbanovanın, İsmayıl Osmanlının, Mərziyə Davudovanın, Ələsgər Ələkbərovun səhnə fəaliyyətinə nəzər yetirən Mehdi Məmmədov aktyorun teatr üçün əhəmiyyətini bu şəkildə müəyyənləşdirir: "İncəsənət xadimləri arasında aktyor yeganə sənətkardır ki, öz müasirləri ilə bilavasitə ünsiyyətdə olur, sözün əsl və müstəqim mənasında onlarla üzbəüz dayanır, onu həyəcanlandıran hissləri, onu düşündürən fikirləri öz vətəndaşlarına (tamaşaçılarına) özü təqdim edir, onlarla bir ürəyin döyüntüsü ilə, eyni vaxtda, eyni həyatla yaşayır. Bu mənada aktyor sənətinin ictimai-estetik mahiyyətini, yaradıcılıq psixologiyasını tədqiq və təhlil etmək, öyrənmək çox maraqlıdır" [5, s.138].

O, hər bir aktyorun səhnə əsərlərində ifa etdiyi obrazların təhlili zamanı əsas elmi nəticələrini qeyd etməklə, onların Azərbaycan teatr tarixində yerini və xidmətlərini müəyyənləşdirməyi bacarmış, aktyorların ilk oynadığı obrazlar, yaradıcılıqlarında onları zirvəyə aparan tamaşalar və obrazlar haqqında məlumat vermişdir. Müəllif aktyorların ilk addımlarının gələcək səhnə uğurlarının inkişafında bünövrə rolunu, sənət axtarışlarının ilk təməl daşının üstündə yüksəlməsi faktını qeyd etməyi unutmamışdır:

| Aktyorlar | Zirvə rolları | Ustad olduğu sahə |
|---|---|---|
| Hüseyn Ərəblinski | Otello (Vilyam Şekspirin "Otello" əsəri) | Faciə |
| Mirzağa Əliyev | İsgəndər (Cəlil Məmmədquluzadənin "Ölülər" əsəri) | Komediya |
| Abbas Mirzə Şərifzadə | Hamlet (Vilyam Şekspirin "Hamlet" əsəri | Faciə |
| Bülbül | Koroğlu (Üzeyir Hacıbəyovun "Koroğlu" operası) | Opera |
| Hökümə Qurbanova | Südabə (Hüseyn Cavidin "Səyavuş" əsəri) | Faciə |
| Mərziyə Davudova | Sevil (Cəfər Cabbarlının "Sevil" əsəri) | Faciə |
| İsmayıl Osmanlı | Bahadur bəy (Cəfər Cabbarlının "1905-ci ildə" əsəri) | Komediya |
| Ələsgər Ələkbərov | Vaqif (Səməd Vurğunun "Vaqif" əsəri) | Dram |

Müəllif "Müsibəti-Fəxrəddin" əsərinin tamaşaya qoyulması ilə səhnə fəaliyyətinə başlayan Mirzağa Əliyevin faciədən sonra komediya janrında obrazları icra etməsi ilə aktyorluq peşəsində özünü tapmasını müsbət hadisə kimi dəyərləndirmişdir. Komedik əsərlərdə ifa etdiyi rollarda yumor və satira gücünün tətbiqi onun fitri istedadını ortaya çıxaran cəhət kimi əhəmiyyətlidir.

Bir-birinə bənzəməyən obrazlar silsiləsində artistin roldan-rola girmə ustalığı sənətşünasın qabartdığı əsas məsələdir. Cəfər Cabbarlının Gültəkin, Firəngiz, Solmaz, Sevil, Almaz qəhrəmanlarının ifaçısı Mərziyə Davudovanın orijinal şəkildə hər surətin xarakterinə uyğun obraz yaratmaq bacarığı tədqiqatçının araşdırmasının başlıca predmetidir. Mehdi Məmmədov İsmayıl Osmanlının obrazlar silsiləsini təhlil edərkən, aktyorun səhnədən-səhnəyə dəyişkən xarakterli mənfi və müsbət obrazların öhdəsindən gələ bilməsini peşəkar sənətkarın uğuru kimi dəyərləndirmiş, Ələsgər Ələkbərovun istedadını isə hər bir obrazın cildinə girməyi, obrazdan obraza tanınmaz dərəcədə dəyişərək hər dəfə yeni bir aktyor məharətini nümayiş etdirməsində görmüşdür. Hüseyn Ərəblinskinin əsl məharəti o məqamda üzə çıxırdı ki, iki fərqli obrazı eyni vaxta eyni tamaşada (Şillerin "Qaçaqlar" əsərində Frans və Karl obrazlarını ifa etmişdir – N.M.) oynamışdır.

Müxtəlif rolların ifaçısı Abbas Mirzə Şərifzadə yaradıcılığının ümumi xüsusiyyətləri sırasında obrazların bir mövzu çərçivəsində – insanın səadəti üzərində axtarış, personajların mübarizə ehtirası motivi – cəmləşməsi ətrafında tənqidçinin fikirlərinin haqlılığı inkar edilə bilməz. Aydın, Oqtay, Elxan, Hamlet, Otello, Maqbet, Səyavuş, Sənan müxtəlif təbiətə malik

obrazlar olsa da, onları birləşdirən “axtarış” məsələsidir. Bu obrazların hər biri öz həqiqətinin axtarışına çıxmışdır. Xəyal aləmi ilə mövcud gerçəklik arasındakı ziddiyyət bu axtarış ehtirasını alovlandıran və insanlığın səadəti uğrunda mübarizə eşqini təbliğ edən səbəb idi. Bu reallıqları oxucu və tamaşaçıya çatdırmaq vəzifəsini öhdəsinə götürən aktyorun da əsas diqqəti oxşarlıqların içərisində yer alan özünəməxsus cizgiləri göstərməkdir ki, Abbas Mirzə Şərifzadə bu məqamda aktyor ustalığını işə salırdı.

Bir aktyorun ən vacib keyfiyyəti ifa edəcəyi obrazı dərk etmək və onun daxili aləmini öz sənətkarlıq bacarığı ilə birləşdirib obrazın özü olmaq ustalığında üzə çıxır. Aktyor emosionallığı ilə obrazı səhnədə yaşamaq və xarakter yaratmaq prinsipi Hüseyn Ərəblinskinin yaradıcılığının əsas xüsusiyyətləri sırasındadır. Hüseyn Ərəblinskinin ən böyük xidməti Azərbaycan teatr tarixində realist teatr məktəbinin hökm sürdüyü bir vaxtda romantik aktyor məktəbinin əsasını qoymasındadır. Mehdi Məmmədov onun bu tarixi xidməti barədə belə yazmışdır: “O, iki bulağın gözündən, iki yaradıcılıq rüşeyminin peyvəndindən faydalanarkən, bir tərəfdən, bizim milli məktəbimizin, müasir səhnə sənətimizin əsasını yaratmışdır. Digər tərəfdən, bir aktyor kimi heç nəyi və kəsi təqlid etmədən orijinal bir istedad, nadir bir ifaçı kimi formalaşa bilmişdir. Belə ki, Ərəblinskinin milli aktyor oyunu zəminində formalaşan yaradıcılıq keyfiyyəti, eyni zamanda bizim milli aktyor məktəbimizi layiqincə təmsil edən bir hadisə olmuşdur” [6, s.28-29].

Aktyor məktəblərindən bəhs edərkən Mehdi Məmmədovun bir-birinə zidd fikirlərinin də olduğunun şahidi oluruq. Müəllif “Teatrlar, aktyorlar, tamaşalar” (1966) kitabında belə bir fikir irəli sürür: “Orta nəsildən olan istedadlı aktyorlarımız realist aktyor məktəbini – Cahangir Zeynalovun, Hüseyn Ərəblinskinin, Hüseynqulu Sarabskinin, Abbas Mirzə Şərifzadənin, Bülbülün, Mirzağa Əliyevin, Sidqi Ruhullanın, Mərziyə Davudovanın yaradıcılığını yaşatmış və inkişaf etdirmişlər” [4, s.149]. Onun “Teatr düşüncələri” (1977) kitabında isə tamam başqa bir fikrə təsadüf edirik: “Ərəblinski yaradıcılığı pafos və patetika ilə aşılanmış bir yaradıcılıqdır. Həmin keyfiyyət bizim səhnə irsimizdə davamlı olmuş, milli Azərbaycan teatrında düzgün mənimsədildiyi hallarda (A.M.Şərifzadənin, Sidqi Ruhullanın, Mərziyə Davudovanın, Kazım Ziyanın, İbrahim İsfahanlının, Ələsgər Ələkbərovun, Ağadadaş Qurbanovun yaradıcılığında olan kimi), yenidən çiçəklənmiş, yeni bəhrələr vermişdir” [5, s.159]. Hüseyn Ərəblinsinin romantik məktəbin yaradıcısı olduğu məlumdursa, onun və davamçılarının adının realist məktəbin nümayəndələri kimi qeyd edilməsi maraq doğurur. Bizim fikrimizcə, onun tədqiqata cəlb etdiyi aktyorlardan Hüseyn Ərəblinski, Abbas Mirzə Şərifzadə, Ələsgər Ələkbərov, Mərziyyə Davudova, Hökümə Qurbanova romantik aktyor məktəbinin, Mirzağa Əliyev, İsmayıl Osmanlı isə realist aktyor məktəbinin nümayəndələridir.

## Nəticə / *Conclusion*

Azərbaycan teatr tarixində nəzəri-estetik fikirləri ilə elmi ictimaiyyətin diqqətini cəlb edən Mehdi Məmmədovun tədqiqatları zəngin bilik səviyyəsinə malik olan, tədqiqata cəlb etdiyi mövzuların üzərində diqqətlə işləyən, ortaya qoyduğu problemlərin həlli yollarını irəli sürməyi bacaran bir tədqiqatçının varlığından xəbər verir. Klassik ənənədən bəhrələnən bu düşüncə tərzi öz başlanğıcını bu mənbədən götürsə də, bu təcrübənin içində itib-batmır, öz mülahizələrini sərbəst şəkildə ifadə edən tədqiqatçının olduğunu sübut edir. İstər ədəbiyyat nəzəriyyəsi, istərsə də incəsənətin teorik məsələlərini araşdırarkən, belə nəticə hasil olur ki, o, hər iki sahənin vacib problemlərini eyni müstəvidə tədqiqata cəlb etmişdir. Teatr və dramaturgiyanın inkişafı məsələlərini qarşılıqlı vəhdətdə götürən tənqidçinin fəaliyyəti haqqında belə qənaətə gəlirik ki, o, universal təfəkkürə malik olan, zəngin təcrübəyə yiyələnən və elmi yeniliklərə meyil edən bir alimdir.

**Ədəbiyyat / *References***

1. Aristotel. Poetika. Tərcümə edəni: A.Aslanov. – Bakı: Şərq-Qərb, 2006.
2. Məmmədov, M. Həyat məktəbi. – Bakı, 27 dekabr 1969.
3. Məmmədov, M. Teatrım, əzizim mənim. – "Ədəbiyyat və incəsənət", 2 iyun 1974.
4. Məmmədov, M. Teatrlar, aktyorlar, tamaşalar. – Bakı: Azərnəşr, 1966.
5. Məmmədov, M. Teatr düşüncələri. – Bakı: İşıq, 1977.
6. Məmmədov, M. Hüseyn Ərəblinski: həyatı və yaradıcılığı. – Bakı: Azərnəşr, 1973.

## ТЕАТРАЛЬНЫЕ ИССЛЕДОВАНИЯ МЕХТИ МАМЕДОВА

**Нурлана Мамедова**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: memmedovanurlane89@gmail.com

**Резюме.** Театр – средство эстетического познания, имеющее функцию воспитания людей, затрагивая их эмоциональные стороны. Сущность художественного творчества состоит в том, чтобы влиять на людей и вселять в них положительные идеи. В связи с этим вовлечение этих двух направлений в единый анализ является одной из актуальных проблем современности. Мехти Мамедов, отличавшийся своей активностью в области искусства, выполнил свой долг исследователя, исследуя важные проблемы театра и драматургии. Цель статьи рассмотреть научные знания театроведа, изучающего теоретические и эстетические аспекты драматургии. В связи с этим были проанализированы представления Мехти Мамедова о театре и драматурге, театре и актере, заслугах актеров в истории азербайджанского театра, актерских школах, оценены его место и положение в истории литературно-теоретической мысли.
**Ключевые слова:** Мехти Мамедов, драматургия, театр, актер, театральные школы